


## Biz harada hərəkət edirik

Tbilisidəki baş ofisdən əlavə, Mtsxeta, Qori və Zuqdididə üç sahə ofisimiz var və patrul xidmətimizi oradan başlayırıq. Bizim müşahidəçi mandatımız bütün Gürcüstan ərazisini əhatə edir, lakin Abxaziya və Cənubi Osetiya de-fakto iqtidarları onların nəzarəti altında olan ərazilərə daxil olmağımızı qadağan etməyə davam edirlər.

## Biz sizi dinləyirik

Müşahidəçilərimiz sizinlə məmnuniyyətlə söhbət etməyə hazırdırlar. Müşahidəçilərimizi həmişə gürcü və rus dilli köməkçilər müşayiət edirlər.



Bizi ziyarət edin:

www.eumm.eu

@ eummgeorgia

# EUMM

## AVROPA İTTIFAQININ GÜRCÜSTANDAKI MÜŞAHIDƏÇI MISSIYASI



# Biz kimik

Biz Avropa İttifaqının Gürcüstandakı Müşahidəçi Missiyasıyıq. Biz Avropa İttifaqının (Aİ) hər yerindən 200-dən çox silahsız müşahidəçi ilə təmsil olunuruq. Bizi Avropa Birliyi bayraqları olan mavi avtomobillərimiz və mavi gödəkçələrimizlə asanlıqla tanıya bilərsiniz.

Biz Gürcüstana 2008-ci ilin Gürcüstan-Rusiya müharibəsindən sonra təhlükəsizlik vəziyyətini müşahidə etmək üçün, 2008-ci il oktyabrın 1-də gəldik. Qeyd olunan tarixdən etibarən, biz ilin 365 günü gecə-gündüz patrul xidmətindəyik və baş verən hadisələri müşahidə edərək, beynəlxalq ictimaiyyətə məlumat veririk.

Biz bu qeyd olunanları konkret məqsəd üçün edirik: həm Gürcüstanda, həm də bütün regionda uzunmüddətli sabitliyə töhfə vermək üçün.




# Biz nə edirik

Bizim fəaliyyətimiz həm Gürcüstanda, həm də bütün regionda sabit və təhlükəsiz mühitin formalaşmasına töhfə vermək məqsədini daşıyır. Bunu bir neçə vasitədən istifadə edərək edirik:

1. Müşahidəçilərimiz daim patrul edirlər və mövcud vəziyyəti müşahidə edirlər. Bu isə, hər hansı bir tərəfin düşmənçiliyi qızışdırmasının qarşısını alır. Onlar bilirlər ki, biz baş verən hadisələrin şahidləri və məruzəçiləri olacağıq.

2. Biz müharibədən ən çox əziyyət çəkənlərin normal həyata qayıtmasına yardım edirik. Biz insanların hərəkət azadlığı kimi hüquq və ehtiyaclarını və bu qeyd olunanların sağlamlığa, təhsilə, pensiyaya, əmlaka və suyun əlyetərliyinə olan təsirini nəzərə alırıq. Mümkün olduğu yerlərdə, biz bu məlumatı yerli əhaliyə lazımi yardım göstərə biləcək qurumlara çatdırırıq.

   Biz humanitar və ya inkişafı dəstəkləyən təşkilat deyilik. Ona görə də, biz konkret layihələri birbaşa dəstəkləyə və ya maliyyələşdirə bilmirik.



3. Münaqişə tərəfləri arasında ünsiyyət və məlumat mübadiləsini təmin edən bir neçə platformamız var. Bu qeyd olunanlar, gərginliyin qarşısını almağa və azaltmağa kömək edir.

4. Və sonunda, müşahidələrimizin nəticələrini Avropa İttifaqı və onun bütün üzv dövlətlərinə göndəririk. Onlar qeyd olunan məlumatlardan Gürcüstan və bütün region üçün ən yaxşı siyasəti hazırlamaq üçün istifadə edirlər.